# Müəllimlərin özünüaktuallaşdırmasının peşəkar “Mən obraz”ına psixoloji təsiri

**Satibə Əfəndi qızı Fərhatlı**
*Azərbaycan Dillər Universitetinin müəllimi*
**E-mail:** ferhatlı.satibe@mail.ru

**Rəyçilər:** psixol.ü.f.d., dos. M.C. İsmayılova,
psixol.ü.f.d., dos. U.M. Qəzvini

**Açar sözlər:** pedaqoji fəaliyyət, özünüaktuallaşdırma, özünüreallaşdırma, identifikasiya, özünəhörmət, özünüdərk

**Ключевые слова:** педагогическая деятельность, самоактуализация, самореализация, идентификация, самоуважение, самосознание

**Key words:** pedagogical activity, self-actualization, self-realization, iden-tification, self-esteem, self-awareness

Özünüaktuallaşdırma inkişaf edən şəxsiyyətin hərəkətverici qüvvəsi və mühüm tələbatıdır. Özünüaktuallaşdırmanı bir çox psixoloqlar müəyyən anlayışlarla, məsələn, E.From “yetkin şəxsiyyət”, Q.Olport “hiss”, E.Erikson “eqo identikliyi hissi”, A.Maslou “özünüaktuallaşdırma” ilə ifadə etmişlər. Özünüaktuallaşdırma hər bir şəxsiyyətin imkanlarının: həyati məqsədlərinin və dəyərlərinin reallaşdırılmasına cəhdi və qabiliyyətidir.

A. Maslou özünüaktuallaşmaya gedən yolu təsvir edərkən bütünlükdə onun xarakteristikasını belə təsvir etmişdir: koqnitiv effektivlik, reallıqda komfort qarşılıqlı münasibətlər, özünü qəbuletmə, spontanlıq, təbiilik, avtonomluq, sərbəstlik, iradə, aktivlik və s. Özünüaktuallaşdıran şəxsiyyət yenilik hissinə yiyələnməli, yüksək təəssüratlara malik olmalı, özünü identifikasiya etməyi bacarmalı, insanlarla münasibətdə seçici və demokratik olmalı, habelə vasitəni məqsəddən, xeyirxahlığı bədxahlıqdan seçməyi bacarmalı və yumor hissinə malik olmalıdır. Alimin fikrincə, özünüaktuallaşma nadir hallarda mümkündür, ona görə də özünüaktuallaşıran insanlar azlıq (təxminən 1%) təşkil edir.

Özünüaktuallaşdırma konsepsiyasının tamlıqda izahı A. Maslou və K. Rodjersin humanist nəzəriyyəsində şərh olunmuşdur. A. Maslou motivlərin təsnifatında ierarxik model təklif etmişdir. Həmin modelə aiddir: fiziki tələbatlar, təhlükəsizlik tələbatları, sosial əlaqələrə tələbat, özünühörmətə tələbat, özünüaktuallaşdırmaya tələbat. Bütün motivlər içərisində əsas diqqəti psixoloq A. Maslou özünüaktuallaşdırma tələbatına yönəltmişdir. Bu tələbatı alim şəxsiyyətin inkişaf prosesi və mexanizmi kimi bütün potensialların reallaşmasına şüurlu cəhd kimi nəzərdən keçirir.

Müvafiq şəraitdə özünüaktuallaşdırma təhriketmə və məişət dəyərlərinin reallaşmasında, insanın psixoloji tələbatlarının təminatında təzahür edir. K.Rodjersə görə, özünüaktuallaşdırmanın mühüm şərti insanın başqa adamlarla birgə qarşılıqlı münasibətində, autentik fenomendə və empatiyada ifadə olunmuş xarakterdir. Fikrimizcə, özünüaktuallaşdırma psixi vəziyyət və proses, şəxsiyyətin mühüm cəhəti kimi nəzərdən keçirilməlidir. O, insanın özünütəkmilləşdirməyə, özünüdərkə, özünüreallaşdırmağa pozitiv cəhdidir. Alim qeyd edir ki, özünü-aktuallaşdırma insanın “Mən konsepsiyası”nın reallaşması və uğurlara nail olma prosesidir.

Özünüaktuallaşdırma eyni vaxtda həmin prosesin təhrikedicisi, həm də motivin inkişaf stimulu kimi təzahür edir. Bu termin özünüreallaşdırma anlayışı ilə sıx surətdə bağlıdır. Birinci

halda söhbət müstəqil şəkildə potensialın reallıq səviyyəsində həyata keçirilməsindən, ikinci halda isə əşyavi formada onun mövcudluğundan gedir. Özünüaktuallaşdırma həmişə özünü-reallaşdırmadan qabaqda gedir və onun zəruri şərti olur.

Özünüaktuallaşma insanın meyllərini və potensialını reallaşdırmağa cəhdidir. O, şəxsiyyətin inkişaf prosesi olub onun imkanlarını, başqaları ilə aktiv fəaliyyətini həyata keçirmək prosesi olub insanın daxili planında (subyektiv), özünü-reallaşdırma isə xarici planında (obyektiv) həyata keçirilir.

E.F. Zeer peşəkar özünüaktullaşdırmanı şəxsiyyətin peşə aktivliyinin yüksək normativliyinin təzahüründə, müxtəlif növ inkişafetdirici psixoloji texnologiyaların iştirakında potensialın aktivləşməsi yolu ilə peşəkarlığın inkişafının sürətlənməsi kimi nəzərdən keçirir (4, s. 39).

Peşə fəaliyyətində peşəkar özünüaktuallaşdırma müəllimin özünü və öz şəxsi peşə yolunu və "Mən obraz"ını dərk etməsi imicin formalaşması, fərdi fəaliyyət üslubu qarşıya qoyulan məqsədlərə nail olmaqla reallaşır. Özünüaktuallaşdırmanın yarım komponentli strukturu sərvət dəyərlərinin mühüm əhəmiyyətini təsdiq edir. Onlar şəxsiyyətin strukturunda mühüm elementlərdən sayılır. O, insanın davranışını istiqamətləndirməklə obyektiv şəraitdə və şəxsiyyətin subyektiv münasibətində ifadə olunur.

Peşəkar özünüaktuallaşma tərəfimizdən müəllimin özünü peşədə axtarması, şəxsi peşə rolunu, "Mən" obrazını, peşəkar imicini, peşə fəaliyyətinin fərdi üslubunu dərk etməsi, habelə yeni peşə vəzifələrinin qurulması, seçilmiş peşəyə potensialın reallaşmasına cəhd kimi nəzərdən keçirilir. N.V. Ovçarenko müəllim şəxsiyyətinin özünüaktuallaşdırmasını ali pedaqoji məktəblərin qarşısında duran mühüm vəzifələrdən biri hesab edirdi. Onun fikrincə, texnologiyalara şəxsi bələdləşmənin əsasında dioloji yanaşma qoyulmalıdır ki, o müəllim şəxsiyyətinin özünüaktuallaşmasını və özünütəqdimetməni müəyyən etsin" (5, s. 355). Alim qeyd edirdi ki, peşə fəaliyyətində müəllimin özünüreallaşdırması onun həyat tərzini və məqsədini həyata keçirməkdir.

Özünüaktuallaşdıran müəllimlər seçdikləri peşədə özlərinin dəyərlərini, maraq və qabiliyyətlərini reallaşdırmaq, bütün imkanlarını təkmilləşdirməyə cəhd göstərirlər. Belə şəxsiyyətə özünüinkişaf, yeni problemlərin həllinə hazırlıq, başqa insanları başa düşmək qabiliyyəti, sosial mühitdən asılı olmayaraq mühakimələrdə sərbəstlik, özünü və başqalarını qəbul etmək, qarşıda duran vəzifələrə bələdləşmə, peşəkar məşğuliyyət və s. aiddir.

Peşə fəaliyyətində müəllim şəxsiyyətinin peşəkar özünüaktullaşdırmanın inkişafı növbəti dəyər xarakteristikasını təmin edir: ünsiyyət və birgə fəaliyyətdə özünü təzahür etdirmək imkanı, fikirlərini öz nöqteyi nəzərindən ifadə etmək, özünü dərketməyə və qabiliyyətini aşkar etmək peşə üçün zəruri olan xarakterik cəhətlərdir.

Tərtib edilmiş xarakteristika müəllim şəxsiyyətinin əsas cəhdlərini (özünüdərki, özünütəkmilləşdirməni, özünüreallaşdırmanı, sosial əlaqə və münasibətləri) şərtləndirir. Peşəkar özünüaktuallaşdırma hər bir müəllimin daxili fəallığı, peşə sahəsində özünütəkmilləşdirməyə daxilən pozitiv və yaradıcı cəhdi, eləcə də psixoloji yetkinliyi və səriştəliliyidir. Bu proses müəllimin öz şəxsi potensial imkanlarını dərindən dərk etməsi və onu real olaraq ətraf mühitdə gerçəkləşdirməsidir. O həm də müəllimin şəxsi və peşəkar yetkinliyi prosesidir.

Deməli, özünüaktuallaşdırma müəllimin xüsusi idraki fəallığıdır və o şəxsi yaradıcılıqla bağlı verilmiş suallara cavablarda ifadə olunur. Belə fəallığın nəticəsi özünüdərk və özünütəyindir. Özünüaktuallaşdırmanı şərtləndirən amilləri daxili və xarici olmaqla iki yerə ayırırlar. Şəxsiyyətin özünüaktuallaşdırmasını şərtləndirən xarici şərtlərə empatiya və ətraf aləmdə onun üçün dəyərli olan insanlar tərəfindən başa düşülmə, qabiliyyət və potensial aid edilir.

Bir sözlə, peşəkar özünüaktuallaşma psixi proses olub müəllim şəxsiyyətinin inkişafını və

təşəkkülünü, qabiliyyətlərini, psixoloji xüsusiyyətlərini, insanın təbii potensialını maksimal şəkildə araşdırılmasıdır. Odur ki, özünüaktuallaşdırma prosesi yalnız sosial şəraitdən, inkişafdan və tarixi kontekstdən deyil, həm də insanın özündən, onun gələcəyindən və bir şəxsiyyət kimi təşəkkülündən asılıdır. Özünüaktuallaşdırma şəxsiyyətin inkişafının üsulu deyil, o inkişaf prosesinin özü olub mürəkkəb və fasiləsizdir.

Peşə fəaliyyətində müəllimin özünüaktuallaşdırmasının nəticələrinin təhlili bir neçə mərhələdən keçir. *Birinci mərhələdə* müəllimin özünüaktuallaşdırmasının psixoloji məzmunu təhlil edilir. *İkinci mərhələdə* müəllimin peşəkarlığının istiqamətinin səviyyəsi, peşə sahəsində onların özünüaktuallaşdırmasının psixoloji məzmunu, təlim formaları araşdırılır. Ü*çüncü mərhələdə* peşə istiqamətinin səviyyəsi ilə müəllimlərin özünüaktuallaşdırmasının və özünüreallaşdırmasının dərəcəsi arasında qarşılıqlı əlaqə göstərilir.

Peşəkarlığa istiqamətlənmənin səviyyəsi müəllim şəxsiyyətinin motivasiya strukturuna və subyektiv nəzarət səviyyəsinə psixoloji təsir göstərir. Bu səviyyə nə qədər yüksək olarsa məqsədin, dəyərlərin və fikirlərin reallaşması bir o qədər yüksək olacaqdır. Özünüaktuallaşdırma müəllimlərin peşə fəaliyyətlərində tələbat bazası kimi onların şəxsiyyətinin tamlığına təsir edən uğurdur. Daha doğrusu o müəllimin uğurunun, "Mən konsepsiyası"nın, "Mən obraz"ının reallaşmasıdır.

Tədqiqatçılar gender və peşəkar, müxtəlif statuslu sosial mədəniyyətə malik müəllimlərin özünüaktuallaşdımasının psixoloji xüsusiyyətlərini müəyyən etmişlər. Şəxsiyyətin özünüaktuallaşdırması səviyyəsinə təsir edən xarici və daxili amillər araşdırılmışdır. Gender "Mən obraz"ı müəllim şəxsiyyətinin sosiallaşmasının ilkin mərhələsində formalaşır və müvafiq "Mən obraz"larının formalaşmasının psixoloji xüsusiyyətlərini müəyyən edir.

"Mən Obraz"ları arasındakı əlaqə və ya ziddiyyətlər müəllimlərin özünüaktuallaşdırma dəyərlərində psixoloji uğurlarını ifadə edir. Peşəkar "Mən obraz"ı şəxsiyyətin aktiv sosial həyatının çox hissəsində aparıcı olur. S.A. Drujilov peşəkar "mən konsepsiyası"nı müvafiq fəaliyyətin mütəxəssisi kimi bir insanın özü haqqında şüurlu, sabit bir fikir sistemi kimi müəyyən edir (2, s. 115).

Özünüdərkin strukturunda müəllimlərin gender və peşəkar "Mən obraz"ının özünüaktuallaşdırması və özünüreallaşdırması qarşılıqlı əlaqədədir. Gender və peşəkar "Mən obraz"ları arasındakı əlaqə nə qədər çox olarsa özünü- aktuallaşdırma və özünüreallaşdırma bir o qədər çox ifadə olunar. Gender və peşəkar "Mən obraz"ları arasında əlaqənin yüksək səviyyəsi kişi və qadın müəllimlərinin özünüaktuallaşdırma, özünüreallaşdırma səviyyəsini peşəkar adaptasiya mərhələsində yüksəldir.

Özünüaktuallaşdırmanın və özünüreallaşdırmanın zəif olması, həyatdan narazılıqlar 10 il stajı olan qadın müəllimlərində daha çox müşahidə olunur. Qadınların müxtəlif "Mən obraz"ları arasındakı ziddiyyətlər peşəyə adaptasiya mərhələsində deyil, peşəkarlıq mərhələsində, qadın müəllimlərinin öz dəyərlərinin reallaşdırmasında çevikliyi aşağı səviyyədə olur.

Tədqiqatçı alimlərdən: A.A. Qriqoryeva, Y.P. Povarenkov özünüaktuallaşdırmanın və özünüreallaşdırmanın uyğunluğunu, birgə fəaliyyəti öyrənərək müəyyən etmişlər ki, şəxsin özünüaktuallaşdırması və özünüreallaşdırması qarşılıqlı əlaqədədir, lakin bir-birini əvəz edən fenomenlər şəxsiyyətin təşəkkülündə müxtəlif vəzifələrin həllinə yönəldilir. Özünüaktuallaşdırma şəxsiyyətin daxili fəallığını əks etdirib şəxsi resurs imkanlarının öyrənilməsinə və müəyyən edilməsinə istiqamətlənir (48, s. 175).

Konkret peşə fəaliyyətində şəxsiyyətin peşəkar özünüaktuallaşdırması onun əməyə hazırlığının özünüreallaşdırmasına zəmin yaradır. Özünüreallaşdırma real fəaliyyətdə özünün resurs imkanlarının aktiv şəkildə dəyişdirməyə yönəldən və onlardan optimal istifadə etməkdə ifadə

olunan şəxsiyyətin qabiliyyətidir.

Peşəkar özünüaktuallaşdırma tərəfimizdən "özünü peşə daxilində" axtarma, özünün peşəkar rolunu, "Mən obraz"ını, peşəkar imicini, fərdi peşə üslubunu, habelə özü üçün peşə perspektivlərini müəyyənləşdirmək kimi səciyyələndirilir.

Təhsil və peşə fəaliyyəti müstəqil peşə fəaliyyətinin mərhələsini qabaqlayır. Peşə fəaliyyətində müəllimlərin özünüaktuallaşdırması müvafiq psixoloji xüsusiyyətlərə malik olmaqla müvafiq "Mən obrazı"larının mühüm cəhətlərinin açıqlanmasına və dərkinə, o cümlədən yaradıcılıq potensialının təzahürünə kömək edir. Özünüaktuallaşdırma insanın özünə münasibətində dəyişiklikləri əhatə etməklə psixoloji maneələrin optimal şəkildə aradan qaldırılmasını təmin edir. Şəxsiyyətin inkişaf mexanizmi kimi özünüaktuallaşdırma insanın potensialının mühüm psixoloji xüsusiyyətlərə keçməsini şərtləndirir. Müxtəlif şəxsiyyət münasibətləri kontekstində fərdi əlaqələr özünüaktuallaşdırma prosesində nəzərdən keçirilir.

Cəmiyyətin inkişafının müasir mərhələsində özünüaktuallaşdırma müəllim də daxil olmaqla hər hansı bir şəxs üçün vacib və tələb olunan xüsusiyyətdir. Özünüaktuallaşdırma müəllimlərin davamlı fərdi inkişafını, potensialını, özünüdərkini və peşəkar səriştəliliyə malik olmasını təmin edir. Bütün bunlar pedaqoji fəaliyyətin təkmilləşməsinə və qarşılıqlı əlaqə prosesində şagird şəxsiyyətinin inkişafına şərait yaradır.

**Məqalənin aktuallığı.** Gender və peşəkar "Mən obraz"ları arasındakı əlaqənin yüksək səviyyəsi müəllimlərin özünüaktuallaşdırma və özünüreallaşdırma səviyyəsini peşəkar adaptasiya mərhələsində yüksəldir. Bu da məqalənin aktuallığını bir daha təsdiq edir.

**Məqalənin elmi yeniliyi.** Elmi məqalədə peşəkar özünüaktuallaşdırma şəxsiyyətin özünü peşədə axtarması, şəxsi peşə rolunu, "Mən" obrazını, peşəkar imicini, peşə fəaliyyətinin fərdi üslubunu, o cümlədən yeni peşə vəzifələrinin qurulması, seçilmiş peşəyə potensialın reallaşmasına cəhd kimi nəzərdən keçirilir.Məqalədə müəllimlərin özünüaktuallaşdırmasının peşəkar "Mən obraz"ına psixoloji təsiri araşdırılmışdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbələr, magistrantlar və doktorantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Григорьева А.А., Поваренков Ю.П. Проблема соотношения и взаимодействия профессиональной самоактуализации и профессиональной самореализации личности // Ярослав. пед. вестн, 2015, № 3, с.166–174.

2. Дружилов, С.А. Психология профессионализма. Инженерно-психологический подход. Харьков: Изд-во «Гуманитарный Центр», 2011, с. 296.

3. Зеер, Э.Ф. Психология профессионального образования: учебник для студ. учреждений высш. проф. образования / Э.Ф.Зеер. -2-е изд., испр. и доп. -М.: Издательский центр «Академия», 2013, 416 с., (Сер. Бакалавриат).

4. Корнилова, А.А. Исследование составляющих «Образа Я» современного студента-бакалавра/ Психология, социология и педагогика, 2012, № 5 [Электронный ресурс].

5. Овчаренко, Н.В. Сравнительный анализ понятий «самореализация» и «самоактуализация» как составляющих категориального аппарата философии образования // Исторические, философские, политические и юридические науки, культурология и искусствоведение, вопросы теории и практики. 2015, № 3–3(53), с. 141–144.

**С.Э. Фархатли**

## Психологическое влияние самоактуализации преподавателейна профессиональный «Я образ»

## Резюме

В научной статье отмечается, что самоактуализация является движущей силой и важной потребностью развивающейся личности. По мнению автора, профессиональная самоактуализация профессиональной деятельности осуществляется путем осознания учителем себя и своего личного профессионального пути, «своего имиджа», формирования имиджа, индивидуального стиля деятельности, достижения поставленных целей. В научной статье исследуется психологическое влияние самоактуализации учителей на профессиональный «образа Я».

**S. A. Farhatli**

## The psychologıcal effect of teachers 'self-actualızatıon on the professıonal "I am ımage"

## Summary

The scientific article notes that self-actualization is a driving force and an important need of a developing personality. According to the author, professional self-actualization of professional activity is carried out through the teacher's awareness of himself and his personal professional path, “his image”, the formation of an image, an individual style of activity, achievement of the set goals. The scientific article examines the psychological influence of teachers' self-actualization on the professional “self-image”.

**Redaksiyaya daxil olub:** 16.03.20